

Novruz İbrahim oğlu Novruzov. Sevil Cavanşir-Novruzovanın övladı. 1957-ci il martın 13-də Ağdam şəhərində anadan olub. Şəhər 1 nömrəli orta məktəbində oxuyub. 1975-1980-ci illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsil alıb. İxtisasca jurnalistdir. 40 il jurnalistika sahəsində çalışıb, müxtəlif mətbu orqanlarda işləyib. Hazırda Qarabağ Azadlıq Təşkilatının varisi olan Azad Vətən Partiyasının Siyasi Şurasının sədridir.

İctimai-siyasi fəaliyyətlə yanaşı ədəbi-bədii və araşdırma yazıları ilə tanınır. Ümumiyyətlə, jurnalistika sahəsində müxtəlif janrlarda 3000-dən çox publisistik və elmi-publisistik məqaləsi qəzet və jurnallarda, kitablarda dərc olunub.

Yaradıcılığı: "Günah"- hekayə, 1985, "Müəllif gecəsi"- hekayə, 1987, "Haqq döyüşçüsü"- sənədli povest,1995, "Arabaçı Arifin ariyası"- hekayə, 2009, "Ritorik"- hekayə, 2011, "Dar gününə gün cala"- hekayə-2011; Tərcümələr-rus dilindən: Zoşşenko "Qızıl sözlər"-1986, Paustovski "Səfeh porsuq"-1987, Viktor Konyaxin "Qəzet", Aqata Kristi "Qəhvəyi kostyumlu kişi"-roman, 2008 və s. Azərbaycancadan fransız dilinə: Azərbaycan uşaq nağılları (8 nağıl)-2010; "Şah İsmayıl və digər Azərbaycan dastanları"-2015.



**Novruz Novruzov**
**(İbrahimoğlu)**

# TORPAĞIN SAHİBİ

**Qarabağın məşhur Cavanşir nəslinin**

**bir qolu haqda araşdırma**

B A K I - 2025

Redaktor: Vasif Quliyev

**Novruz Novruzov (İbrahimoğlu) Torpağın sahibi**
Bakı, "Zərdabi Nəşr" MMC, 2025, 68. səh.

**ISBN**

© **Novruz Novruzov (İbrahimoğlu)** 2025

## *Qaranlığı yaran işıq seli*

Günəşin doğmasını seyr etmisinizmi? Hər səhər onun üfüqdən yayılan şəfəqləri boy atdıqca dünyamız göz önündə ağarır, aydınlaşır və təbiətin gözəlliyi ruhumuzu canlandırır. Bu, bizim hələ də tam mənası ilə dərk edə bilmədiyimiz, iradəmizdən asılı olmayaraq mövcud olan reallıqdır.

Təbiətin möcüzəsi olan təbii günəşlə yanaşı bizim özümüzdən asılı olaraq əxz etdiyimiz başqa bir günəş də var. Onun adı "Təhsil"dir. Təbii günəş bütün kainata, "təhsil" isə insanların birləşdiyi, günəşin və ətraf aləmin dərkini öyrənməyə can atan cəmiyyətə məxsus mənəvi təkamül iksiridir. İnsanların inkişaf yolunun hər bir dövründə bu iksirin mahiyyətini anlayan, xalqı işığa doğru aparan insanlar olur. Azərbaycanın belə övladlarından biri də əyalət səviyyəsində çalışan, amma neçə-neçə insanın şüurunda çıraq yandıraraq işığa doğru yönəldən Qəzənfər bəy Nəcəfqulu bəy oğlu Cavanşirdir. Bu kiçik kitabda dünyagörüşünə görə maarifçi-demokrat olan Qəzənfər Cavanşırın qaranlığı yaran işıq selinə bənzəyən həyatı və ictimai fəaliyyəti haqda bəzi qeydlər ifadə olunur.

*Müəllifdən*

# TORPAĞIN SAHİBİ

***XIX əsrin ikinci yarısı... Rusiya imperiyasının zülmü altında inləyən Azərbaycanın feodal dövlətlərindən ən mükəmməli olmuş Qarabağ xanlığının keşməkeşli tarixinin soluxmuş payız dövrü. Xan ailəsinin şəcərəsinə daxil olan kiçik bir qolun tarixindən qısa hekayət.***



**Qəzənfər ağa Cavanşir**

Qəzənfər ağa Cavanşir Qarabağın məşhur Cavanşir nəslinin parlaq ziyalı nümayəndələrindən biri olmuşdur. Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşirin böyük oğlu İbrahimxəlil xanın nəticəsidir. Təxminən 1870-ci ildə Ağdamın II Yüzbaşılı kəndində anadan olmuşdur.

İbrahim xanın kiçik oğlu Talıbxan bəyin nəvəsi olan atası Nəcəfqulu bəy Cavanşir mahalda "Bığlı Nəcəfqulu" ləqəbi ilə tanınırmış. İbrahim xanın 5-ci oğlu Səfiqulu ağanın qızı olan anası Münəvvər xanım atasının əmisi oğlu Mehdiqulu xanın qızı Xurşid banu Natəvanla təkcə qohum yox, həm də hamisi tək güvəndiyi yaxın rəfiqə olmuşdur.

XIX əsrdə işğal etdiyi torpaqlardakı tarixi dövlətlərin yağmalanması hesabına əldə etdiyi qüdrətin kulminasiya nöqtəsinə çatmış Rusiya imperiyası özünü vahid və sarsılmaz dövlət kimi aparırdı. İmperiyanın velikorus təfəkkürlü sahiblərinin haqsızlıq təkəbbürünə nə qədər riyakarlıq hopsa da fakt faktlığında qalırdı. Koloniyaçılar əsarətə aldıqları koloniyaları assimilyasiyaya uğradıb tarixdən silmək yolunu tutmuşdular.

Həmin dövrün əzilmiş dövlətlərindən biri də Azərbaycan ərazisində intişar etmiş Türk Xanlıqlarından (feodal dövlətlərindən) olan Qarabağ xanlığı idi. Lakin artıq istila və uzun müddət istismar sayəsində xanlığın dövlətçiliyi yalnız kağız üzərində qalmışdı. Həmin dövrdə çar məmurlarının riyakar təzimləri fonunda möhtəşəmliyi nəzərə çarpan Xanlıq ailəsi reallığı aydın düşüncə ilə qiymətləndirir, tarixi boyu çalışıb-vuruşub qanları bahasına yaradıb qazandıqları dövləti, dövlətçilik ənənələrini və kübar davranış ədalarını qoruyub saxlamaq və gələcəyə ötürmək üçün tədbirlər görürdülər. Xanlıq tarixinin öləziyən sonluğunda əsil-nəcəb sahibi olan Xan ailəsinin, onun yaxın çevrələrinin qayğısına qalmaq, yüksək milli ədəb normaları çərçivəsində

daim naz-nemət içərisində yaşamış bir nəslin nümayəndələrinin kimlərinsə sədəqəsinə möhtac olmamaları, ayaqlar altında əzilib rişxənd və istehza ünvanına çevrilməmələri üçün hələ ki ayaq üstə olan nəslin qan daşıyıcıları məqsədyönlü strategiya yürüdürdülər. Ən yaxın çevrədə olan ailələrə Xanlığın idarəçiliyindəki torpaq sahələrindən pay verilir, bütöv kəndlər bağışlanır, xanlıq səviyyəsində vaxtilə qüdrətli paytaxt olmuş Şuşadan uzaqlaşdırılaraq xanlıq ərazisinin müxtəlif bölgələrində məskunlaşdırılırdılar. Bu strategiyanı əsaslandıran amillərdən biri də müstəmləkəçilərin "vahid dövlət" prinsipini bəhanə gətirərək torpaqları öz əllərinə keçirmələri idi. Əslində xanlıq torpaqları adlandırılan ərazilər elə əvvəldən Cavanşir tayfasına məxsus olmuşdı. Lakin Xanlığın əsasını qoymuş Pənahəli xan Cavanşir tarixin həmin mərhələsində artıq formalaşmanın son dövrünə qədəm qoymuş Azərbaycan xalqının mənafeyini əsas götürərək böyük torpaq sahələrini yaratmış olduğu dövlətin əmlakı kimi təsbit etmişdi. İndi isə Rusiya xalqın dədə-baba torpağını əlinə keçirməklə bütövlükdə Azərbaycanı öz mülkiyyətinə çevirmək yolunu tutmuşdu. Buna heç cür yol vermək olmazdı. Vəziyyətdən çıxış yolu qabaqlayıcı siyasət yeritməyi tələb edirdi. Bu da vərəsəlik hüququ altında torpaqları yenidən keçmiş sahiblərinə qaytarmaq yolu ilə gələcək nəsillər üçün qoruyub saxlamaq idi. Xanlıq torpağının bu vərəsəlik bölgüsündə İbrahim xanın oğul-uşaqlarına, nəvələrinə Qarabağın məhsuldar sahələrindən sayılan və indiki Ağdam və Ağcabədi rayonlarının ərazisinə düşən bir sıra kəndlər də miras qalmışdı.

İbrahim xanın 5-ci oğlu Səfiqulu ağanın böyük oğlu Hüseynqulu ağa Cavanşirin (1848-ci ildə anadan olmuş, XX əsrin birinci onilliyinin ikinci yarısında, dəqiq bilmədiyimiz ildə vəfat etmişdir-müəl.) idarəçiliyinə Zəngişalı-Mahrızlı kəndləri, qızı Münəvvər xanım Cavanşirə isə qonşuluqdakı I və II Yüzbaşılı kəndləri (əri, atasının əmisi nəvəsi Nəcəfqulu bəy Cavanşirlə birgə) düşmüşdü. Yeri gəlmişkən, bu kəndlərin qonşuluğunda yerləşən Xındırıstan kəndi klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Cavanşir nəslindən olan Qasım bəy Zakirə mənsub olmuşdur.

**HAŞİYƏ:** S*əfiqulu ağanın 8 oğlu və 1 qızı olmuşdur. Ağdam rayonunun Zəngişalı-Mahrızlı kəndləri başda böyük oğul Hüseynqulu ağa olmaqla onun 4 oğluna verilmişdir.*

Hüseynqulu ağanın və qardaşlarının malikanələri üçün Zəngişalı kəndinin kənarında 10 hektarlıq sahə ayrılmış, “ağalıq” (yəni, ağalara məxsus) adlanan həmin sahədə meyvə və bəzək ağaclarından ibarət gözəl bağ salınmışdı. Kəndin qocaman sakinlərinin şahidliyinə görə, bağda təkcə nar ağaclarının növü 300-ə çatırdı. Ağalıqda 4 qardaşın hər birinin ayrıca malikanəsi olmuşdur. Yaşına və ailədəki yerinə görə idarəçiliyi həyata keçirən Hüseynqulu ağanın malikanəsi daha böyük idi. İki mərtəbəli malikanədə hər mərtəbədə 6 otaq olmaqla cəmi 12 otaq vardı. Arxitekturasına görə bina elə tikilmişdi ki, ev adamları dəvət edilən məmurlar və iş üçün ağanın yanına gəlib gedənlərlə rastlaşmasınlar. Hər iki mərtəbənin tən ortasından bu başdan o başa uzanan əsas divar və otaqlar

boyunca hərləməhər dəhlizlər malikanənin idarə və yaşayış bölümlərini bir-birindən ayırırdı. Yəni, əslində tikilinin bir üzü ailənin, digər üzü idarəçilərin ixtiyarında idi və hər iki tərəfin giriş-çıxışı bir-birindən əks istiqamətdə yerləşirdi. Binanın birinci mərtəbəsi idarə kantoru, şikayətçilərin qəbulu, habelə anbar üçün ayrılmışdı. İkinci mərtəbədə isə mətbəx, yataq, yemək, istirahət və qonaq otaqları yerləşirdi.

**HAŞİYƏ:** *Deyilənə görə, Azərbaycan (sovet) kinosunun incilərindən olan "Qaraca qız" filminin süjeti həmin bağda və malikanədə cərəyan edən hadisələrdən yaranmışdır.*

Ağdamda doğulub boya-başa çatan yazıçı Süleyman Sani Axundovun eyni adlı povestinin əsasında yazılmış ssenari üzrə çəkilən filmin süjeti qondarma əhvalatdan yox, məhz Hüseynqulu ağanın malikanəsində baş verən real hadisədən qaynaqlanmışdır. Qaraca qızı övladlığa götürən Piri baba üçün bağın ərazisində tikilmiş ev 20-ci əsrin ortalarına qədər dururdu. Hekayədə "Piri baba" adlanan şəxs Ağalıq bağının bağbanı olmuşdur. Əlimizdə olan məlumatlara görə, əslində, oktyabr çevrilişindən əvvəlki dövrdə yazılmış hekayədə Hüseynqulu ağanın yüksək səviyyədə ziyalı obrazı yaradılmışdır. Ancaq sovet dövrünün ab-havasına uyğun olaraq ideoloji mübarizəyə xidmət edənlərin tələbi ilə ssenariyə sosializm realizmi baxımından yanaşılmış, reallıqdan su içən süjeti saxtalaşdırılaraq, qaraçı köçündən himayəyə götürülmüş Qaraca qızın simasında əzilənlər, Hüseynqulu ağa simasında əzənlər obrazı yaradılmışdır. Bu deyilənləri təsdiqləyən

təsadüfi bir görüş haqda da məlumat vermək istərdim. Ağdam şəhər sakini Elməddin Sərdar adını bildirmək istəmədiyi bir alimin söhbətini mənə danışdı. Alim deyibmiş ki, sovet dövründə əhalinin etnik mənsubiyyətini dəqiqləşdirmək üçün bütün regionların müxtəlif yaşayış məskənlərində yaşayan sakinlərdən seçmə üsulu ilə DNK analizi götürürmüşlər. Həmin tədqiqatların nəticəsi kimi onların özləri üçün də gözlənilməz olan bir fakta rast gəliblər. Ağdamın Zəngişalı kəndində yaşayan, həmin şəxsin özünün də bilmədiyi DNK testinə görə o şəxs qaraçı imiş. Onun ulu babası nə vaxt Zəngişalıya gəlib, ailəsi yerli camaatla necə qaynaylb-qarışıb və necə tam assimilyasiyaya uğrayıb, heç kim bilmirdi. İnformasiya yoxdursa, bu haqda düşüncə də yoxdur. Yəni, kənddə kimsə bu barədə hər hansı məlumata malik deyildi. Bu fakt bizim üçün ona görə maraqlıdır ki, S.S.Axundovun hekayəsinin qəhrəmanı Qaraca qızın həqiqətən qaraçı köçündən olmasını təsdiqləmək imkanı yaradır. Həqiqətdə isə Hüseynqulu ağa haqq-ədaləti qoruyan şəxs kimi rəiyyətin və müasirlərinin qəlbində rəğbətlə iz salmışdır. Hüseynqulu ağa haqda belə bir rəvayət də danışılır ki, "onun bir Quran(ı) vardı, üstündə ilan yatırdı. Ağanın özündən başqa kimsə o kitaba yaxın dura bilməzdi". Rəvayət tipli olsa da, belə bir faktın reallığı hansısa formada tamamilə mümkündür. Ancaq bunun yalnız nədənsə qaynaqlanan adi rəvayət olması da istisna deyil. Lakin bu əhvalatın mahiyyətində camaatın Hüseynqulu ağaya hüsn-rəğbəti açıq-aydın duyulur. Hüseynqulu ağanın arvadı Cəvahir xanım, oğlu Zül-

füqar bəy və qızı Asyabəyimdən ibarət kiçik ailəsi bu sakit, lakin ağayana malikanədə o dövrün kübar həyatını yaşayırdı. Cavahir xanım da Xan ailəsinə mənsub adlı-sanlı ailənin nümayəndəsi idi. Onun atası, çar ordusunda qulluq edərək polkovnik rütbəsinə qədər yüksələn Qasım xan Cavanşir Xocavənd (sovetlər dövründə adı dəyişdirilib Martuni qoyulmuşdu) uyezdinin Yemişcə, Əsgəran, Naxçıvanik kəndlərinin sahibi idi. Səfiqulu ağa Cavanşirin digər oğlanları - Əşrəf ağa, Həmzə ağa və Teymur ağa da Ağalıq ərazisində məskunlaşmışdılar. O dövr Qarabağın kübar ailələri yaşayış və düşüncə tərzinə əsasən 3 zadəgan titulu daşıyırdılar.

1. Xan(lar). Birinci titulun daşıyıcıları adətən yüksək dövlət qulluğunda (yaxud yüksək hərbi vəzifədə) çalışan və külli miqdarda sərvətə sahib olanlar idi.

2. Bəy(lər). Bu qrup döyüşkən, vurub-tutan, çalıb-çapan, daim igidlik göstərməyə meyil edənlərdən ibarət olurdu.

3.Ağa(lar). Üçüncü qrup isə daha çox ağayanalıq, yüksək mədəniyyətli, elmə və təhsilə ciddi diqqət yetirən maarifpərvər, ziyalı adamları ehtiva edirdi.

Azərbaycan tarixində bəy, xan titullarının yeri aydındır. Lakin "ağa" sözünü bəzən titul kimi qəbul etmirlər. Lakin mənbələrdə qeyd edilir ki, bir neçə yüz il əvvəl Osmanlı ordusunda "ağa" titulu olub və görünür tədricən bu söz Azərbaycan türklərinin lüğət tərkibinə daxil olub, ancaq osmanlı ləhcəsindəki mənada yox, ziyalılıq, maarifpərvərlik anlamında yeni titul kimi. Cavanşir nəslinin bu qoluna məxsus ailə üzvlərinin əksəriyyətinin "ağa" ad-

landırılması da təsadüfi deyildi. Qarabağ xanlığının tarixi faktlarını əks etdirən mənbələrdə və nəsil-kök xatirələrində İbrahim xanın kiçik oğlu Talıbxan bəy (haqqında bəhs etdiyimiz Qəzənfər ağa Cavanşirin ulu babası) gülüb-danışan, sözü daim yerində və güclü məna çaları ilə işlədən, satirik və yumorlu atmacaları ilə məşhur olan bir şəxs kimi təqdim olunur. Hakim ailəyə mənsub olmasına baxmayaraq Talıbxan bəy haqq-ədalət aşiqi, kasıb-kusub tərəfdarı olmuşdur. Buna görə də o, dəbdəbəli həyat tərzini həmişə müəyyən limit daxilində cilovlamış, bu xarakteri ilə də rəiyyətin ünsiyyətini və rəğbətini qazanmışdır. Onun övladları da bu ruhda tərbiyə almış, nəslin qanı ilə gələn düzlük və ədalətlilik prinsipləri, azadlıq və müstəqillik arzuları onların həyat amallarına çevrilmişdir. İbrahim xanın nəvəsi Hüseynqulu ağa da tabeliyindəki xidmətçilər, ona məxsus kəndlərin camaatı olan rəiyyətlə rəftarında ölçü-biçini gözləsə də kiminsə xətrinə dəyməz, ortaya çıxan problemləri sakit və tədbirlə yoluna qoyardı.

Xanlıq ailələri qışı aranda, öz evlərində keçirər, yayda mütləq Şuşa şəhərinə yaylağa qalxar, bütün yayı onlar üçün ayrılmış mülklərdə dincələrdilər. Təbii ki, kübar ailənin nökər-naibi də onlarla birgə yaylaqda olardılar.

Qəzənfər ağanın və arvadı Asyabəyimin yaşı haqda əlimizdə heç bir rəsmi sənəd yoxdur. Çünki, Qəzənfər ağa 1935-ci ildə, Asyabəyim isə 1976-cı ildə vəfat edib. Bu oçerk isə 2011-ci ildə qələmə alınıb. Qarabağın işğalı zamanı erməni vandallar Ağdam Dövlət Arxivinin materiallarını büsbütün yandırıblar. Üstəlik, şəhərin işğalı gözlənilməz olduğundan əhali öz sənədlərini götürə bil-

məyib. Bu səbəbdən yazıda adları çəkilən bu iki şəxsin dəqiq doğum tarixlərini sənədlər əsasında göstərmək mümkün olmadı. Lakin onların yaşlarının təyin edilməsinin maraqlı tarixçəsi var. Belə ki, Asyabəyim xanım sağlığında nəvələrinə, o cümlədən bu sətirlərin müəllifinə öz toyunun məzmununu və necə keçməsini müfəssəl danışmışdı. O, cehizi barədə danışanda həmişə qeyd edirdi ki, atası Hüseynqulu ağa Tiflisdən onun üçün o dövrün məşhur tikiş maşını olan “Zinger” (dünyaca məşhur alman markası-Müəl.) gətirtdirmişdir. Həmin tikiş maşını da bu sətirlərin müəllifinin anası, Asyabəyimin kiçik qızı Sevil xanımda idi.



***Asya bəyim Cavanşir (1935-ci ilin fotosu. Təəssüf ki, Asyabəyimin bəylik dövrünün şəkli qalmayıb.)***

Müəllifdən: Ana babam və nənəmin doğum tarixlərini araşdırmaqda çətinlik çəkdiyim vaxt bir gün qəzetdə “Zinger” maşınları barədə bir yazıya rast gəldim. Yazıda qeyd olunurdu ki, bu məşhur markanın daxili detallarından birinin üzərində onun istehsaldakı seriya nömrəsi qeyd edilib. Həmin nömrə ilə məhsulun hansı ildə

istehsal edildiyini asanlıqla öyrənmək olar. Bu səbəbdən mən maşının bütün detallarını diqqətlə gözdən keçirdim və həmin nömrəni tapdım. “Zinger” maşınları haqda internetdə rus dilində axtarış verəndən sonra lazımı məlumata çıxış əldə etdim. Məlum oldu ki, Asyabəyimə cehiz verilən tikiş maşını 1906-cı ildə istehsal olunub. Bunun əsasında öyrəndim ki, Qəzənfər ağa ilə Asyabəyimin izdivacı 1906-cı ildə baş tutub.

Bundan başqa, Asyabəyim, yeri gələndə, deyirdi ki, o, ərə gedəndə lap uşaq idi, cəmi 14 yaşı vardı və çox vaxt qaynanası (doğma bibisi Münəvvər xanım) ilə birgə yatırdı. Həm də o deyirdi ki, həmin vaxt Qəzənfər ağanın ləzgi qızı Zümrüddən olan övladı Hürriyyətin 12 yaşı vardı. Deməli, toy 1906-cı ildə olubsa və həmin vaxt Asyabəyimin 14 yaşı vardısa, onda onun təvəllüdü 1892-ci ilə təsadüf edir.

Qəzənfər ağanın doğum tarixi isə hesablamalara görə təxminən 1870-ci ilə təsadüf edir. Çünki, 1906-cı ildə 12 yaşı olan Hürriyyətin doğum tarixi 1894-cü ilə tuş gəlir. Belə çıxır ki, Qəzənfə ağa Zeynəblə 1893-cü ildə evlənib və ən azından Dağıstanın Kizlər şəhərində 1892-ci ildən müəllimlik fəaliyyətinə başlayıb. Bu hesabla onun 1870-ci ildə anadan olmasını təxmin etmək olar. Qeyri-rəsmi məlumata görə Qəzənfər ağa 1935-ci ildə, 65 yaşında vəfat edib. Bu məlumat da 1870-ci il tarixini dayanıqlı edir.

**HAŞİYƏ:** *XIX əsrin sonlarında (təxminən 1894-cü ildə) anadan olmuş Asya bəyim Hüseynqulu ağa qızı Cavanşir bolşeviklərin Azərbaycanı işğal etdiyi dövrədək yaşadığı xanlıq həyatını ahıl yaşlarında (1960-1976-*

*cı illər) tez-tez xatırlayar, o günlərin həsrəti və nostalji hisslərilə həmin dövrün hadisələrini nəvələrinə "bunlar sanki bir nağıl imiş" deyə danışardı: "Qalaya (Şuşaya – müəl.) yaylağa qalxanda düz 40 araba yola düşərdi. 30 arabada yükümüz olardı.*

10 arabada gədələr öz əyalları ilə oturardı. Cavahir anam üçün bir fayton, mənim üçün də dayəmlə bir fayton qoşulardı. Ağam (Hüseynqulu ağa) bizimlə getməzdi, məhsulun yığılması, anbarlara vurulması, ya da bazara göndərilməsi işlərinin təşkili üçün ağalıqda qalardı. O həmişə bizdən 3-4 həftə sonra gələrdi yaylağa.

Faytonlarımızı qaçaq-quldurdan, 1905 və 1918-ci illərdə erməni yaraqlılarından qorumaq üçün köçümüzü həmişə Hüseyn bəy başının atlıları ilə müşayiət edərdi".

**MÜƏLLİFDƏN:** *Mən Hüseyn bəyi görmüşdüm. Ötən əsrin 60-cı illərinin sonları idi. Asyabəyimin kiçik oğlu Emin Cavanşirov Ağdamın M.Ə.Sabir küçəsində tikdirdiyi şəxsi yaşayış evində anası üçün öz mətbəxi və artırması olan ayrıca otaq ayırmışdı.*

Evin planı "ağalıq" malikanəsinə çox bənzəyirdi. Xanım-xatın Asyabəyim nənənin otağının giriş-çıxışı tam əks tərəfə idi. Havaların xoş vaxtı o, həyət darvazasının ağzında nəvələrinə düzəltdirdiyi daş səkidə oturub həsrət hopmuş gözlərini üfüqlərin hardasa gizlənmiş qeyri-səlis istiqamətinə zilləyər, bəzən gəlib-gedən tanış simalarla hal-əhval tutardı. Günlərin xoş bir vaxtında, axşamüstü doqqazın ağzından keçən cüssəsi kiçilmiş xeyli qoca kişiyə ərklə "Boy, bəri bax görüm, sən Hüseyn bəy deyilsən?" deyən Asyabəyim nənənin "bəy" sözü məni sakitcə

pıqqıldayıb gülməyə məcbur etdi. Yayın istisində kişinin başında motal papaq, ayağında yalnız ucqar dağ adamlarında rast gəlinən çarıq vardı. O, adını eşidən kimi dərhal geri döndü, bir xeyli diqqət edəndən sonra həlimliklə "Asyabəyim!?" deyib keçmiş əyyamlarda ağasının qabağında olduğu kimi kirimişcə əmrə müntəzirsayaq yerində durdu. "Nə var, nə yox, ay Hüseyn bəy, övladdan, nəvədən, nəticədən nəyin var, harda yaşayırsan, dolanışığın nə təhərdir?" – deyə, Asyabəyim onu sorğu-suala tutdu. Kişi suallara eyni həlimliklə, sanki üst-başından və halından utanırmış kimi qısaca və çəkingən cavab verib sağollaşdı və əvvəlki ahənglə sakitcə yoluna davam etdi. Uşaq sadəlövhlüyü ilə "Bunun harası bəy oldu, bu lap dilənçiyə oxşayır ki...?" sualıma Asyabəyim nənə (biz ona "Qaqqa nənə" deyərdik, "qaqqa" isə loru dildə "şirin" demək idi) ağır-ağır başını tərpədib, simasını çulğalayan qüssə ilə cavab intonasiyalı sual verdi: "Eh, ay bala, sən bunun hansı gününü görmüsən ki!?". Sonra da öz-özünə danışırmış tək dodaqlarının arasında "Budeyyy, bir də gördün tor-tozanaq göyə qalxdı, dördnala çapan atların ayaq tappıltıları aləmi qarışdırdı, nökər-naib bir-birinə dəydi. Nədi-nədi, Hüseyn bəy başının atlıları ilə burdan çapıb keçir!"-dedi. Hüseynqulu ağanın oğlu Zülfüqar bəy həyatını erkən, təsadüfi faciə və düşmənin hiyləgər fitnəkarlığı nəticəsində itirmişdir.

XX əsrin əvvəli, təxminən 1903-cü il idi. 17 yaşına çatmış oğlu Zülfüqarın gələcək taleyi Hüseynqulu ağanı ciddi düşündürürdü. Ailənin mülkiyyətində olan kəndlərin inzibati idarəçiliyini öyrənən gəncin dövrünə görə

müvafiq təhsil alması, feodalizm dünyagörüşündən yeni intişar tapan burjua dünyagörüşünə yiyələnməsi, əldə olan var-dövləti nəinki qorunması, onun daha da artırılması qayğısına qalması üçün Hüseynqulu ağa müvafiq plan hazırlamışdı. Ağanın arzusu oğlunu bir müddətə xaricə göndərib, onun həyat təcrübəsinin və savadının artırılması idi. Ancaq o dövrdə Avropa təlim-tərbiyəsinin Şərq mühitində qəbuledilməz olan mənfi tərəfləri onu təşvişə salırdı. Buna görə də istəyirdi ki, Zülfüqarı evləndirib sonra təhsil dalınca xaricə göndərsin.

Bu məqsədlə də çox götür-qoy edəndən sonra qardaşı Əşrəf ağanın qızı Hədiqə bəyimin namizədliyi üzərində dayanmışdı. O dövrdə hakim zümrədə qohumla evlilik hamının arzusu idi. Həm ailədə genetik qana naməlum yad qan qarışmırdı, həm var-dövlət kənara axmırdı, həm də izdivac daha möhkəm, stabil və kənar təzyiqlərə davamlı olurdu. Xoşbəxtlikdən Zülfüqar bəy də doğma əmisi qızına meyilli olduğunu gizlətmirdi və bu vəziyyət ağanın niyyətini tez reallaşdırmağa yardım edirdi.

**HAŞİYƏ:** *"Bir həftə idi ki, Zülfüqarın toy hazırlığı gedirdi. Qapıda bir qələbəlik vardı ki, gəl görəsən. Eh.., ağam 3 gün toy vurduracaqdı.*

Həyətdə düyü arıtlayan kim, qoyun-quzunu kəsib doğrayan kim, abqora üçün çərəzi təmizləyən, mer-meyvə tədarükü görən... Sədri düyüsünü ağam İrandan gətirtmişdi. Hökumət əhli üçün Gürcüstandan şərab göndərilmişdi. Zülfüqarın bəy dostlarına ismarış edilmişdi, bütün mahallardan cavanlar toya gələsiydi..."- Asyabəyimin xatirələrindən.

Həmin il əkin-biçin üçün düşərli olub. Bağ-bağatın, zəmilərin məhsulu yığıb-yığışdırılmaqla qurtarmırmış. Təbiətin görünməmiş səxavəti adamları sevindirməklə yanaşı həm də qayğılandırırmış. Hüseynqulu ağa tez-tez deyərmiş ki, bu qədər məhsulun qar-qadası kimin başında çatlayacaq görən?!

Ailənin bu şad günlərində Zülfüqar bəyin toyuna ilk gələn dostları Lənkəranın gənc bəyləri olur. Ertəsi gün səhər yeməyindən sonra qonaqlar kəklik ovuna çıxmağı arzulayırlar. Ev sahibinin göstərişi ilə ova tədarük görülür. Atlar yüyənlənir, ov üçün bəslənən xüsusi təlim görmüş gözübağlı qartallar qollar üzərində qəfəslərdən çıxarılır, ov tulalarının boynuna zınqrovlar asılır. Fərasətlərini göstərmək üçün qanları qaynayan gənclər bir-birlərinə aman-iman vermədən atlarını şahə qaldırırlar. Dostlarından geri qalmayan Zülfüqar bəy nökərin məşğul olduğunu görüncə onun kiçik oğlunu öz otağında divardan asdığı ov tüfənginin dalınca göndərir. Özü isə yaxınlıqdakı sahəyə baş çəkməyə gedir, tapşırır ki, yaraq-yasağını dalınca gətirsinlər. Uşaq əmri eşidən kimi ikinci mərtəbəyə qaçır, tüfəngi divardan götürüb gətirir. Taleyin gərdişindən tüfəng ayaqda imiş. Uşaq ova gedən dəstənin dalınca qaçıb tarlada onlara çatır. Amma şəraitin gərdişindən təntimiş uşaq ehtiyatsızlığa yol verir, barmağı tətiyə toxunur və tüfəng açılır. Güllə Zülfüqar bəyin topuğuna dəyir. Toyqabağı ova çıxan gənc bəyin dostlarının qucağında yaralı geri qayıtması malikanəni təlatümə gətirir. Zülfüqar bəy qara-qışqırıq salıb qaraçılıq etməmələri üçün nökər-naibə təpinir. Dərhal həkim dalınca fayton göndə-

rilir. Təbii ki, toy təxirə salınır və görülən tədarük saxlanılır. Ortada düşmənçilik olmadığından, hadisənin təsadüfi xarakterindən dolayı nökərin uşağı da bağışlanılır, ona cəza verilmir.

Kəndə ən yaxın məkanda yaşayan həkim Simonun yardımı ilə 3 həftəyə Zülfüqarın yarası xeyli sağalır. Artıq o, ayağı sarıqlı olsa da yavaş-yavaş kənd içərisində görünməyə başlayır. Onun sağalması üçün əhd edilmiş qurbanlıq heyvanları kəsməyə hazırlaşırlar. Bu arada Hüseynqulu ağanın qardaşı Əşrəf ağa qəfil vəfat edir. Bundan istifadə edən kəndin yüzbaşısı onun dul qalmış arvadı Fatmanı özünə arvad etmək fikrinə düşür. Lakin Zülfüqar bəyin qorxusundan fikrini acıb-ağarda bilmir. Əslində yüzbaşının əsas məqsədi ailəyə daxil olub var-dövləti ələ keçirmək idi. Məqsədinə çatmaq üçün o, yollar axtarır və Zülfüqarın ayağını müalicə edən erməni həkim Simon bu məsələdə onun karına gəlir. Yüzbaşıdan sanballı məbləğdə qızıl alan Simon Rusiyaya getməyini bəhanə gətirərək Hüseynqulu ağaya daha Zülfüqar bəyin sağaldığını və müalicəsinin yalnız sarğını dəyişməkdən ibarət olduğunu bildirir. Bunun üçün o, Cəvahir xanıma toz halında dərman verib, sarğını dəyişəndə oğlunun yarasının üstünə tökməyi tapşırır. Bundan sonra Simon kəndi tərk edir və bir daha onu "gördüm" deyən olmur. Elə ilk sarğıdəyişmədən bir neçə saat sonra Zülfüqar bəyin əhvalı qarışır. Bunun səbəbini bilməyən ev adamları bir az səbr etməyi qərara alırlar. Ancaq səhərisi bəyin vəziyyətinin ağırlaşdığını görüb onu Ağdama, Fərrux həkimin yanına aparırlar. Əsaslı müayinədən

sonra məlum olur ki, yaraya tökülən "toz" zəhər imiş. Lakin artıq gec idi, güclü zəhər qana daxil olmuşdu və bu səbəbdən gənc əsilzadəni xilas etmək mümkün olmur. Zülfüqar bəy həyatdan kam almamış vəfat edir. Oğlunun vaxtsız ölümü Hüseynqulu ağanı sarsıtmaqla bərabər həm də onun əsas varisini itirməsi demək idi. İndi o özü də bu dünyanın vəfasızlığına məruz qalsaydı, onda yeniyetmə qızı Asyabəyim tək qalacaqdı. Oğul itkisi ağanın belini əymişdi və hadisələrin düşündüyü istiqamətdə inkişaf etməyəcəyi ehtimalı onu qayğılandırırdı. Buna görə də Asyabəyimi tezliklə yaxın qohumlardan biri ilə evləndirmək artıq vacib məsələyə çevrilmişdi. Çox götür-qoy etdikdən sonra Hüseynqulu ağa bacısı Münəvvərin ikinci oğlu Qəzənfər bəyin namizədliyi üzərində durur. Amma Qəzənfər xeyli uzaqda-Dağıstanın Kizlər şəhərində müəllim işləyirdi.

***

Səfiqulu ağanın yeganə qızı Münəvvər xanım İbrahim xanın kiçik oğlu Talıbxan bəyin nəticəsi Nəcəfqulu bəylə ailə qurmuşdu. Onların Bəhram, İbrahim, Qəzənfər və Həsən adında dörd oğul övladı vardı. Nəcəfqulu bəy qoçaqlığı və mərdliyi ilə mahalda ad çıxarmışdı və el arasında "Bığlı Nəcəfqulu" kimi tanınırdı. Ancaq "qabağından yeyən" olmadığı üçün onun düşmənləri də çox idi. Elə bu səbəbdən də gənc yaşında düşmənləri tərəfindən öldürülür və yeniyetmə yaşlarında olan uşaqları atasız qalır. Ailənin böyük sıxıntı içərisində yaşamasına rəğ-

mən az sonra dörd qardaşdan ikisini – Qəzənfəri və İbrahimi Münəvvər xanımın əmisi qızı Xurşidbanu Natəvan öz himayəsinə götürür, təlim-tərbiyələri ilə məşğul olur. Xan qızının sayəsində Qəzənfər bəy o dövr üçün mükəmməl təhsil alıb savadlanır və 1893-cü ildə Kizlər şəhərində müəllimlik fəaliyyətinə başlayır. Həmin dövrün inqilabi hərəkatına qoşulan Qəzənfər bəyin dünyagörüşü maarifçi-demokrat kimi formalaşır. O, kökü etibarilə hakim nəslə mənsub olsa da haqq-ədalət tərəfdarı idi və cəmiyyətdə inkişafın əsasını xalqın maariflənməsində görürdü. Təbii ki, XIX əsrin sonlarında hələ çar Rusiyasının mütləqiyyət quruluşuna qarşı mübarizə gedirdi. İnqilabi hərəkata qoşulanları bir amal birləşdirirdi: söz, vicdan azadlığı, sosial ədalət və s. Mübarizənin önündə gözüaçıq ziyalılar, vətənpərvər qüvvələr dururdu. Ümumi hərəkatda xalqçılar, maarifçilər, anarxistlər başda olmaqla bir çox cərəyanlar yer alırdı. Hələ imperiyanın əzdiyi xalqların milli azadlıq ideyaları təzə-təzə cücərirdi. Hələ inqilabçılar bolşeviklərə, menşeviklərə və trotskiçilərə bölünməmişdi. Hərəkata qoşulanların ümumi koordinasiya nöqtəsi yalnız ölkəni dəyişdirmək strategiyasında kəsişirdi. Təhsili artdıqca, dünyanın bilik xəzinəsinə baş vurduqca, başqa ölkələrdə yetişmiş öncül dünyagörüşə yiyələndikcə gənc Qəzənfər də feodal-patriarxal dünyagörüşündən uzaqlaşır, qabaqcıl burjua-demokratik düşüncəyə sahib olurdu. Bu yeni təfəkkür tərzi isə onu inqilabi hərəkata çəkirdi. Sonralar o, tələbəlik və ilk müəllimlik fəaliyyətini xatırlayaraq apardığı inqilabi təbliğat barədə ailəsinə danışarmış.

**HAŞİYƏ:** *Qəzənfər ağa student olan vaxtı hökumətin qadağan etdiyi kağızları oxuyurmuş.*

“Bir dəfə yasovullar onların qaldığı yataqxanaya hücum edəndə oxuduqları vərəqləri gizlətməyə yer tapmayıblar, məcbur olub tikə-tikə edərək öz aralarında bölüşdürüb udublar. Xəfiyyələr studenlərin yataqlarını, kitab-dəftərlərini alt-üst etsələr də heç nə tapmayıb kor-peşman qayıdıb gediblər...” -Asyabəyimin xatirələrindən. Elə həmin illərdə inqilabi ruhun atəşi ilə Qəzənfər bəy Kizlərdə Zümrüd adlı ləzgi gözəlinə aşiq olur və çox keçmədən onunla ailə həyatı qurur (bu nikahın hansı şəraitdə, ailənin razılığı ilə, yoxsa “inqilabçılıqla” baş tutduğu haqda əlimizdə məlumat yoxdur). Bir il sonra onun bir qız övladı dünyaya gəlir. Həyatının məqsədini xalqın cəhalətdən qurtulmağı uğrunda azadlıq mübarizəsində görən gənc müəllim övladına Hürriyyət (azadlıq) adı verir. Ağız məlumatına görə gənc müəllim bir müddət Qusarda, daha sonra Ağcabədidə müəllimlik edib, amma hansı illərdə məlum deyil. Ümumiyyətlə, Qəzənfər bəyin həmin dövr ictimai-siyasi fəaliyyəti barədə məlumat çox azdır. Fakt odur ki, dayısı oğlu Zülfüqar vəfat edəndən sonra dayısından qəti və zəhmli qərar alan Q.Cavanşir təxminən 1906-cı ildə Qarabağa, Zəngişalı kəndinə gəlir. Bu dövrdə baş verən hadisələrin dəqiq xronikası, ailənin fikir və düşüncələri, ailə üzvləri arasında polemika barədə tam təfərrüatı ilə informasiya olmasa da o məlumdur ki, sonda Qəzənfər bəy 1906-cı ildə dayısı Hüseynqulu ağanın qızı Asyabəyimlə evlənir. Bu izdivacdan bir müddət sonra Zümrüd də qızı ilə birgə Dağıstandan Azərbaycana

gəlir. Cavanşir ailəsi Zümrüdü qohum qismində hörmətlə qarşılayır, onun yaşayışını tam təmin edir. Ancaq bununla belə Qəzənfər bəylə birgə yaşayış barədə söhbət belə getmir, yalnız ailənin yaxın üzvü kimi ana-balanın ehtiyacları ödənilir və malikanədə yaşayırlar. Lakin Zümrüd Azərbaycanda çox duruş gətirmir, öz elinə-obasına qayıdır. Hürriyyət isə atasının yanında qalır və ömrünü Azərbaycanda başa vurur.



***Qəzənfər ağa və qaynatası Hüseynqulu ağa***

Vətəndə ictimai fəaliyyətini daha da genişləndirmək arzusunda olan gənc ziyalı həyatına Zəngişalı kəndində maarifçilik islahatı ilə başlayır. O, dayısının (həm də qaynatasının) 12 otaqlı malikanəsinin qonaqlar üçün nəzərdə tutulmuş 36 kv.metrlik böyük otağında kasıb balaları

üçün məktəb açır. Bir sinifdən ibarət olan ibtidai məktəbdə oxumaq arzusunda olan kasıb balaları təhsil alır. Şagirdlərin pal-paltarı, dəftər-qələm ləvazimatı ağanın hesabına alınır. Hətta hər gün uşaqlara günorta yeməyi verilir. Həmin şagirdlərdən sovet dövründə təhsilini davam etdirib vəzifə əldə edənlər çox olub. Onlar haqqında hələlik məlumat toplamaq mümkün olmayıb. Ancaq sonralar kolxozda çalışıb Sosialist Əməyi Qəhrəmanı adını alan Turab kişinin adı bəllidir. Turab kişi ötən əsrin sonlarına qədər Ağdamda yaşayırdı. Həmin dövrdən etibarən geniş maarifçilik fəaliyyətinə görə Qəzənfər Cavanşirə "ağa" deyə müraciət edirlər.

Müstəmləkəçi ölkələr əsarətdə saxladıqları xalqlara daim ikiqat zülm etmiş, onların var-dövlətlərini əllərindən almış və koloniyalarda müxtəlif inzibati üsullarla istismar siyasətini həyata keçirmişlər. Azərbaycanda bu iş Rusiyanın təbəəliyinə (müstəmləkəsinə) keçəndən sonra özünü daha qabarıq göstərmişdir. Tarixi mənbələrdə Kremlin xalqımıza qarşı həyata keçirdiyi istismarçı siyasətə aid kifayət qədər material var. Qarabağ xanlığı ərazisində, həm də bu məkanda Pənahəli xan tərəfindən yaradılmış feodal dövlətdə xanlıq əyanlarının mülkiyyətinə verilmiş torpaq sahələrinin rus məmurları tərəfindən "dövlət" adına necə mənimsənilməsindən və vergi ödəyicilərinin ikiqat zülm altına salınmalarından qısa ştrixlərlə, amma sənədlərdə təsbit olunmuş faktlara diqqət edək.

1896-cı ildə İmperiya hökumətinin qərarı ilə yerlərdə torpaqların mərzlənməsi (ölçülməsi) prosesi başlayır. Bu vaxt ortaya çıxan nöqsanlar torpaq mülkiyyətçiləri

arasında ciddi narazılıqlar doğurur və iddiaçılar məhkəməyə müraciət edirlər. Əldə etdiyimiz faktların ümumi mənzərəsi belədir ki, 1910-1916-ci illərdə həyata keçirilmiş 3 məhkəmə iclasında Qarabağda əsas torpaq mülkiyyətçiləri olan Cavanşir nəslinin bir qrup nümayəndəsi məhkəmə vasitəsilə özlərinin mülkiyyətçilik hüquqlarını bərpa etməyə çalışırlar. ***(bax: "Şuşa uyezdinin Baharlı I bağının mərzlənməsi zamanı dövlət və Kərbəlayı Ağa və digər Cavanşirlər arasında yaranmış mübahisə" haqda məhkəmə işi. 30 dekabr 1910 cu ildə başlanmış, 27 sentyabr 1916-cı ildə qurtarmışdır. Dövlət arxivi № 200, Fond 402; Arxiv № 481, Fond 400).***

Lakin bu işə İsmayılbəyovlar nəslindən olan iki nəfər və dövlət nümayəndələri mane olmağa çalışırlar. Hər iki iddiaçı israr edir ki, torpaq onların mükiyyətindədir və həmişə belə olub. Üstəlik, Cavanşirlər arasında da torpaq bölgüsündən narazı qalanlar olub və onlar da məhkəmənin qərarından appellyasiya şikayəti veriblər. Beləliklə, məhkəmə çəkişməsi 1916-cı ilə qədər çəkib və Cavanşirlərin mülkiyyətçilik hüquqlarının tanınması ilə nəticələnib.

İddiaçılar əsasən Qarabağ xanlığıının yaradıcısı Pənahəli xanın böyük oğlu İbrahim xanın kiçik oğlu Talıbxan bəyin törəmələrindən ibarətdir. Məhkəmə materialları arasında bu haqda aydın məlumat var və ardıcıllıqla onların hamısının adı çəkilir. Bunlar Talıbxan bəyin 5 oğlu, onların övladları və nəvələridir. İddiaçıların müvəkkilləri isə o dövrün tanınmış vəkilləri Kələntərov, Qasım bəy Vəzirov və bir iddiaçının öz atasıdır.




Məhkəmə iclasının protokolundan çıxarış: “Palata üzvü Q.V.Kovtunovun işin vəziyyəti haqda məruzəsi üzrə müstəqil vəkil Qasım bəy Vəzirov izah etdi ki, Cavanşirlərin mərzlənmə zamanı Baharlı bağlarının hamısına iddia etmələrinin səbəbi bundadır ki, bu bağ ayrıca mövcud deyil, belə ki, 6 dekabr 1846-cı il ALİ reskriptinə görə Cavanşirlərin mülkiyyətinə verilmiş Yüzbaşılı bağlarının bir hissəsidir. Yüzbaşılı bağlarının işi üzrə sənəddə bu göstərilib. Eyni zamanda, bütün məsələlərin kökü ondadır ki, Baharlı həqiqətənmi Yüzbaşılı bağlarının bir hissəsidir. Bu məsələ üzrə Vəzirov Palataya Qarabağ Əyalət

Məhkəməsinin 13 sentyabr 1839-cu il qərarının rus dilindən tərcüməsini təqdim etdi və bildirdi ki, bu sənəd dövlət səlahiyyətlisinə də verilib. Bu sənəd məhz mübahisəli əraziyə aiddir, ya dövlət bu mübahisəli ərazinin kəndlilərin istifadəsində olduğunu sübut edə bilmir, ya da onların öhdəsində olan Yüzbaşılı bağlarının digər hissəsidir. Vəzirovun fikrincə, bu sənəddən məlum olur ki, göstərildiyi kimi Baharlı bağları Yüzbaşılının bir hissəsidir və 1846-cı il ALİ reskriptinin (Reskript- Rusiya İmperiyası Qarabağın işğalını başa çatdırdıqdan sonra ali müsəlman silkinin hüquqlarının qaydaya salınması məsələsi ortaya çıxdı. Qəbul edilmiş əvvəlki qərarlara etitaz hakimiyyəti güzəştə getməyə vadar etdi. Uzun müddət davam edən hazırlıq işlərindən sonra sərəncam hazırlandı. Nəhayət 6 dekabr 1846-cı ildə I Nikolay bəy və ağaların hüquqları haqqında reskript imzaladı.

12 maddədən ibarət olan sərəncamda on maddə bəy və ağaların torpaq hüququna, iki maddə isə feodal-kəndli münasibətlərinə aid idi. Bu reskriptdə ilk dəfə bəy və ağalara məxsus torpaqlar irsi mülkiyyət kimi qəbul edilirdi. Mülk, mülki-xalisə torpaqları ilə yanaşı tiyul torpaqları da rəsmən bəylərin mülkiyyəti elan olunurdu. İrsi istifadəyə verilən torpaqlar alqı-satqıya qoyula, bəxşiş edilə bilərdi. Lakin bəy və ağa torpaqları özgə silklərə keçə bilməzdi..

Bu reskript feodala kəndlilər arasında qayda-qanun yaratmaq və onlar üzərində polis idarə üsulunu həyata keçirmək hüququ verirdi. Sənəd qüvvəyə minəndən sonra sübut olunurdu ki, mübahisəli bağ Cavanşirlərə məx-

susdur, onlar mərzləmə zamanı öz hüquqlarını bəyan edib və Vəzirov həmin şəxslərin hüquqlarını müdafiə edir. Dövlət tərəfindən əlavə sənəd kimi Vergi İnspektorunun protokolu işə əlavə edilmişdi. Həmin sənəddə birbaşa deyilirdi ki, dövlətin mübahisəli bağa münasibətdə heç bir iddiası yoxdur. Bütün bu deyilənlərdən aydındır ki, mübahisəli bağ üzrə dövlət mübahisəli ərazinin əldə olunmasının hansısa qanuni üsullarını sübut etməlidir. Dövlətin irəli sürdüyü yeganə arqument budur: 1886-cı ildən 1900-cü ilə qədər Baharlı kəndinin sakinləri dövlət kəndliləri kimi yüksək vergi ödəyiblər. Lakin bu vergilər Cavanşirlərin xüsusi mülkiyyətinə təsir etməyib. Bu fakt dosyedə qeyd olunmayıb, əksinə, işdə olan Şuşa şöbəsinin Barışdırıcı Münsifinin protokolunda göstərilir ki, adı çəkilən sakinlərin tabeçiliyi barədə 1870-ci ildə qəbul edilmiş sahibkar kəndlilərin məişət quruluşuna dair Əsasnamədə bu kəndlilərin bir neçə il ərzində fasiləsiz olaraq Cavanşirlərə normal ölçüdə vergi ödəmələri üzrə heç nə deyilmir. 50-ci illərdən 1886-cı ilə qədər normal sahibkarlıq miqyasında vergi tutulub; 1886-cı ildən verginin artırılmasında isə fiskal orqanların səhvi var. Əgər bu sübutlar Palatanı inandıra bilmirsə, onda Vəzirov xahiş etdi ki, bu halda kəndlilərin Cavanşirlərin xeyrinə ödədikləri barədə xatırlamaların ödəmə faktları qonşu şahidlərin dindirilməsi ilə aydınlaşdırılsın. Ağa bəy Cavanşirin yaxın qəyyumu Kələntərova qaldıqda, sərbəst müvəkkil Vəzirov bildirdi ki, o, Ağa bəyin ulu babası Talıbxan bəyin nəslindən olduğunu inkar etmir, eyni zamanda təsdiqləyir ki, Ağa bəy Baharlı bağlarına görə irsi

bölgü zamanı kompensasiya alıb, baxmayaraq ki, o mülkiyyət sahibi olmayıb. Bu da qonşuların dindirilməsi ilə sübut oluna bilər".

Tarixdən məlumdur ki, Rusiya, Qarabağ xanlığının işğalını "təbəəlik" adı ilə 1828-ci ildə başa çatdırıb. Və bundan sonra Azərbaycan ərazisinin ən münbit torpaqlarında (Kür-Araz ovalığı – qaratorpaq zona) Rusiyaya tabe olan üsul-idarə yaradaraq varlıların (bəylərin) var-dövlətini əllərindən alıb, kəndlilərin isə istismarını gücləndirib. Təbii ki, o dövrdə Qarabağın dominant nəsli olan Cavanşirlərin torpaqlarının böyük hissəsi əllərindən çıxıb (zorla alınıb). Həmin dövrdən də onların mülkiyyətləri uğrunda mübarizələri başlanıb. Aydın məsələdir ki, bu mübarizə güc yolu ilə yox, iddiaların yerinə yetirilməsi üçün qüvvədə olan qanunların və bu qanunların başında duran məmurların şəxsi maraqlarının müxtəlif yollarla təmini müstəvisində həyata keçirilib. O dövrdə imperiya müstəmləkə torpaqlarından alınan gəlirləri uçota almaq üçün həmin torpaqların idarəçiliyi sahəsində Nizamnamə Qaydaları yaradıb. Lakin Baharlı I bağları bu qaydaların təsir dairəsinə salınmayıb. Buna görə də "Qarabağ Əyalət Məhkəməsi həmin bağlar üzərində Nizamnamə Qaydalarının tətbiqi üçün 1839-cu ildə müvafiq qərar verib". ("3-cü Mülki Departament üzrə Tiflis Məhkəmə Palatasının 1912-ci il 5-12 mart tarixində keçirdiyi açıq iclasının protokolundan". Arxiv № 481, Fond 400 ). Lakin qərar yerinə yetirilməyib. Məntiqi olaraq belə bir sual doğur: - Niyə? Axı, Nizamnamə Qaydalarının tətbiq olunmadığı torpaqlar dövlətin torpaq reyestrindən kənarda qal-

mış sayılır. Məsələnin məğzi də bundadır. İmperiyanın idarəedici məmur təbəqəsi (məmur mafiyası) dövlətdən gizlədilmiş torpaqlardan alınan gəlirləri də gizlədiblər və həmin torpaqlardan yığılan vergilər xəzinəyə yox, şəxsi adamlara axıb, yəni mənimsənilib. Bu da ona dəlalət edir ki, dövlət əmlakının və ya vəsaitinin mənimsənilməsi metodları Azərbaycana Rusiya imperiyasının bəxş etdiyi vərdişlərdir.

Məhkəmə iclasının protokolundan götürülmüş fakt təsdiq edir ki, Qarabağ xanlığı işğal ediləndən sonra 1846-cı il 6 dekabr ALİ reskripti ilə Cavanşirlərin mülkiyyətinə torpaq sahələri verilib. Məntiqi surətdə yeni sual ortaya çıxır: Nə üçün Qarabağ xanlığını quran Cavanşirlər nəslinin nümayəndələrinə Çar Rusiyası torpaq sahəsi verir? Axı, bu xanlığın ərazisi əsasən bu nəsildən olanlara aiddir. Xüsusilə də Qarabağın düzənlik hissəsi, çünki, Pənahəli xanın ailəsi məhz bu ərazidə intişar edib. Deməк, işğaldan sonra dərhal bütün torpaqlar Rusiyanın ərazisi kimi təsbit edilib və sonradan həmin torpaqların cüzi hissəsini sahiblərinə qaytarmaqla süni ədalət prinsipi formulunu yaratmağa çalışıblar.

Məhkəmə prosesində imperiya siyasətinin əsas məqsədini üzə çıxaran fakt 1886-cı ildən 1900-cü ilədək Cavanşirlərin mülkiyyətində olan torpaqları əkib becərən kəndlilərin əlavə olaraq dövlət vergisinə cəlb edilmələridir. Prosesdə bu hal fiskal orqanların səhvi kimi göstərilir. “Mübahisəli Baharlı I bağlarının mərzlənməsi zamanı bu bağ torpaqlarının faktiki sahibi, torpaqölçənin jurnalından göründüyü kimi, bu bağ torpaqlarında

idarəçiliyi və şumlaması olan bəylərdir. Üstəlik, Yelizavetpol Quberniyasının kəndli işləri üzrə İdarəsinin 19 dekabr 1891-ci il 583№-li jurnalından (Məhkəmə i.v. 68-70) görünür ki, baxmayaraq ki, Barışdırıcı münsif Əsirbəyovun 13/14 mart 1888-ci ildəki qərarı üzrə Baharlı I kəndi sahibkarlıq malikanəsi siyahısı üzrə şöbədə qeyd olunmayıb, halbuki barışdırıcı münsif (Rusiyada 1861-ci il kəndli islahatından sonra kəndlilərlə mülkədarlar arasında törəyən torpaq mübahisələrini qaydaya salmaq üçün yaradılan vəzifə (Rusca-Azərbaycanca lüğət, II cild,1976-cı il) Baharlı sakinlərinin, onların yerləşdikləri torpaqların həqiqətən Cavanşirlərin mülkiyyəti olması və bu səbəbdən onlara gəlirin 1/10-i qədər vergi ödəmələri haqda izahatına baxaraq təsdiq edib ki, 1870-ci il kəndli əsasnaməsi ilə təsdiq edilmiş ALİ tabeçilikdə olan Baharlı I kəndi barışdırıcı münsifin bu qərarını Quberniyanın kəndli işləri idarəsi 14 dekabr 1891-ci ildə təsdiqləyib və sonra öz qərarını Yelizavetpol Quberniya İdarəsinin 1892-ci il 75 nömrəli 16 yanvar qərarına uyğunlaşdıraraq 1870-ci il əsasnaməsi üzrə Baharlı I sakinlərinə sahibkarlıq torpağında yaşayan kəndlilər kimi aşağı vergi tətbiq edilib. Daha sonra, İrəvan Dövlət Palatasının Yelizavetpol Torpaq İşləri və Dövlət Əmlakı İdarəsinin 22 yanvar 1910-cu il 3700 №-li rəyinin surətində göstərilir ki, 1894-1900-cü illərdə Baharlı I kəndinin kəndlilərinin dövlət torpağında yaşayan hissəsi 36 tüstü idi və tüstübaşı vergi öhdəliyi vardı; 1901-1905-ci illərdə bu kənd dövlət-sahibkarlıq subyekti kimi qeyd olunur, 1907-ci ildən isə Baharlı I kəndi "sahibkarlıq" subyekti kimi torpaq yı-

ğımı öhdəliyinə keçirilir. Bu yazılı aktlarla sübut olunur ki, Baharlı I kəndinin torpaqları sahibkarlıq torpaqlarına aiddir, dəqiqliklə bunun üzərində mübahisə edən və 1886-cı ildən 1900-cü ilə qədər dövlətin səhvi üzündən yüksək vergi ödəyən və dövlətin özü tərəfindən 1907-ci ildə həmin səhv düzəldilərək yüksək vergisi ləğv edilən bu torpaqlar Cavanşir nəslindən olan sahibkarlara məxsusdur" (3-cü Mülki Departament üzrə Tiflis Məhkəmə Palatasının 1912-ci il 5-12 mart tarixində keçirdiyi açıq iclasının protokolundan).

Aydın görünür ki, dövlət Qarabağ bəylərinə aid olan dədə-baba torpaqlarını dövlətin adına keçirmək üçün əvvəlcə həmin torpaqlara "səhvən" yüksək dövlət vergisi təyin edir, yəni, bir tərəfdən yerli xalqın istismarını gücləndirir, digər tərəfdən bir müddət sonra həmin torpaqları dövlətə vergi ödədiklərinə görə dövlət torpaqları kimi rəsmiləşdirməyə çalışır. Həm də dövlətin (oxu: imperiyanın) kəndlilərdən aldığı vergi cahibkarların aldığı vergidən xeyli çox idi.

Niyə dövlət səhv təyin etdiyi vergini məhz 1907-ci ildə ləğv edib? Bu ona görə baş verib ki, Rusiyada 1905-1907-ci illərdə burjua inqilabı baş verib və təhkimçiliyin qalıqları ləğv olunub. Həmin dövrdə qəbul edilmiş bəzi yeni qanunlar kəndlilərin asılılığının nisbətən azaldılmasına yönəlib və bəzi vətəndaş hüquqlarının təmininə şərait yaranıb. Bu isə imkan verib ki, Cavanşirlər öz torpaqlarını əllərində saxlamaq üçün dövlətə qarşı iddia qaldırsınlar. Təbii ki, həmin iddia eyni nəsildən olan törəmələr arasında da iddiaların yaranmasına səbəb olub.

Çünki, zaman keçdikcə ailələr böyüyür, mülkiyyətə vərəsəlik hüququ olanların sayı artır.

1910-1916-cı illər arasında keçirilən 3 məhkəmə iclasından sonra Cavanşirlər qələbə çalır və dədə-baba torpaqları vərəsələr arasında bərabər şəkildə bölüşdürülür.

Daha sonralar Azərbaycanın müstəqilliyi uğrunda genişlənən azadlıq hərəkatına qoşulan Qəzənfər ağa Cavanşir Musavat Partiyasına üzv yazılır. Azərbaycan Demokratik Cumhuriyyətinin (1918-1920-ci illər) 23 aylıq həyatında o, maarifçilik fəaliyyətini uğurla davam etdirir. Lakin bolşeviklər Azərbaycanı "azadlıq" şüarı altında işğal edəndən sonra vəziyyət xeyli dərəcədə dəyişir. Özlərini "fəhlə-kəndli hakimiyyəti" adı ilə korazehin bir statusda təqdim edən şura hökuməti ölkədə əsrlər boyu qazanılmış zəngin "ziyalı və kübar" irsini məhv edir, bu irsin daşıyıcılarının vətəni tərk etməsinə rəvac verir. Bu dövrdə Azərbaycanın bütün adlı-sanlı kübar ailələri kimi Cavanşir nəslinin də sanballı nümayəndələrinin əksəriyyəti Türkiyə, İran, ABŞ və Avropaya mühacirət etmək məcburiyyətində qalır. Bir çoxları isə soyadlarını dəyişməklə haqsız cəzalardan qurtulmağa çalışırlar. Bolşeviklər (oxu: işğalçılar) Qəzənfər ağaya "toxunmurlar". Yalnız onun varisliklə qazandığı torpaqlarını əlindən alırlar. Keçmiş irsə nifrət ruhu altında keçən 1917-ci il Oktyabr çevrilişinin dağıdıcı dalğasının təsiri tezliklə malikanəni "suyu sovulmuş dəyirmana" çevirir. Bir neçə onillikdən (1959-cu ildə) sonra isə onun

izi-tozu da qalmır. Kolxoz sədri olan keçmiş rəiyyət nümayəndəsi öz şəxsi maraqları naminə (Cavanşir nəslindən olan dul qadını zorla özünə ikinci arvad edir, daha sonra qadından onun evinə köçüb digər arvadı ilə birgə yaşamağı tələb edir, rədd cavabı aldığından qadını buna məcbur etmək fikrinə düşür) kolxoz idarə heyətinin qərarı ilə malikanəni sökdürür.

Şura hökuməti gələndən sonra Qəzənfər ağa ailəsi üçün Ağdama az qala bitişik Muradbəyli yaşayış sahəsində kiril əlifbasının "Г" (öz adının baş hərfi) hərfi şəklində uzunluğu 24, eni 4 metr olan 4 otaqlı, qabağı hərləməhər artırmalı və şüşəbəndli, kürsülü bir ev tikdirir. Evin yaxınlığında vaxtilə Xan qızı Natəvanın çəkdirdiyi və suyunu dağ çeşmələrindən götürən məşhur kəhriz axırdı. Bu ərazidə yaşayan camaatın içməli su təminatı və bağ-bağatın suvarılması XX əsrin sonlarında Qarabağın rus-erməni işğalına qədər həmin kəhriz hesabına ödənilirdi. Qəzənfər ağa xanlıq dövrünün ən sadiq nökərlərindən birini (təəssüf ki, onun adı hafızələrdə yaşamayıb) yanında saxlamışdı. Ağalıq torpaqları, var-dövlət, malikanə əldən çıxdığı və yeni hökumət adlanan "güruha" inam olmadığı üçün o, arvadının və gözdən yayınaraq küncdə-bucaqda qalmış qızıl məmulatlarını, xüsusilə qadın paltarlarının, baş geyimlərinin üzərində səf-səf düzülən qızıl onluq və beşlikləri (Nikolay onluqları) iki saxsı küpə yığaraq daha ağır günlər üçün əmanət saxlamaq qərarına gəlir. Bəlkə də o, qəlbində ümidlərinin doğrulacağı gələcək azadlıq günü barədə

fikirləşirdi. Sadiq xidmətçisinin məsləhəti ilə Qəzənfər ağa küpləri kəhrizdə, suyun içərisində olmaqla torpağın altında gizlətmək qərarına gəlir. Təbii ki, bu işi xidmətçi həyata keçirir. Ancaq zaman artıq dəyişmişdi. “Proletar diktaturası” haqq-ədalət bəhanəsi ilə insanların mentalitetinə və dünyabaxışına o dərəcədə təsir etmişdi ki, ötən illərin sədaqətlilik və etibarlılıq, mərdlik meyarları buxarlanıb hafizələrdən çıxmışdı. İki gün sonra “sadiq” xidmətçi xəbər-ətərsiz yoxa çıxanda namərd ideologiyası ailəyə “tərs şillə” kimi dəyir. Təbii ki, xidmətçi ilə bərabər küplər də yoxa çıxır. Var-dövlət sarıdan gözütox olan ailəyə bu itki ciddi təbəddülat yaratmır. Etnik baxımdan türk millətinin və bütövlükdə Azərbaycan xalqının, Azərbaycan dövlətçiliyinin formalaşmasında öz fədakar əməkləri ilə şöhrətlənən bir sülalənin davamçısı olaraq Qəzənfər ağa və arvadı Asyabəyim öz qabiliyyətlərinə güvənən insanlar idi və hər problemə yüksək təfəkkür tərzilə yanaşırdılar. Bütün çətinliklərə rəğmən Qəzənfər ağa müəllimlik fəaliyyətini daha da genişləndirir. Şıxbabalı, Çəmənli, Güllicə kəndlərində müəllim, məktəb müdiri işləyir. 1926-cı ildə Şıxbabalı kənd məktəbinin müdiri işlədiyi vaxt qardaşı Kərbəlayı İbrahimin 1910-cu ildə anadan olmuş oğlu Yunis Cavanşirin (bolşeviklərin işğalından sonra repressiyadan qurtulmaq üçün soyadını dəyişib Kazımov edib) Qazax Müəllimlər Seminariyasında təhsil alması üçün yazdığı zəmanət məktubu Azərbaycan Dövlət Arxivində saxlanılır. Ötən əsrin 20-30-cu illə-

rində Ağdamda 3 məşhur müəllim vardı: Qəzənfər ağa Cavanşir, Yəhya Şeyda və İsmayıl bəy.



***Soldan: Qəzənfər ağa, Yəhya Şeyda, İsmayıl bəy.***

1932-ci ildə Q. Cavanşir artıq Ağdam rayonunun tanınmış maarif xadimlərindən idi. O, xalqın maariflənməsi işində öz ideallarına sadiqliyini qoruyurdu. Elm, təhsil və tərbiyənin insan şəxsiyyətinin ali mərtəbəyə yüksəlməsində, habelə cəmiyyətin özünün inkişafında mühüm rol oynadığını başlıca amil olaraq görənlərdən biri kimi Qəzənfər ağa xalqın savadlanması, uşaqların məktəblərə cəlb olunması üçün əlindən gələni edirdi. Azad düşüncə yolunda onun ictimai fəallığı da yüksək idi.

**HAŞIYƏ:** *1935-ci ildə ailədə sonbeşik olan qız dünyaya gəlir. Qəzənfər ağa adını Lətafət qoyur. Bu dövr Azərbaycanın hər yerində C.Cabbarlının "Sevil" pyesi*

*qadın azadlığının carçısı kimi tamaşaya qoyulurdu.*

Təsadüfən Lətafətin 3 aylığı tamam olan gün Ağdamda "Sevil" tamaşasının rayon ictimaiyyəti tərəfindən "Mədəniyyət evi"ndə geniş müzakirəsi olur. İclasda o vaxt Agdam rayon qəzetinin redaktoru işləyən yazıçı Əli Vəliyev və maarifpərvər Qəzənfər ağa da iştirak edirlər. Onlar yaxın dost idilər. Tamaşanın təsir gücünü kütlələrə aşılamaq, qadınların daha cəsarətlə ictimai həyata qoşulmasına rəvac vermək üçün Qəzənfər ağa öz çıxışında dünyaya yeni göz açmış qızı barədə məlumat verir və bildirir ki, "bu gündən etibarən mən qızımın adını dəyişərək Sevil qoyuram" və o, hamını çadranı ataraq ictimai fəallığa çağırır. Sonralar Sevil təhsil alaraq akuşerka (mamaça) ixtisasına yiyələnir. Tibb texnikumunu 1952-ci ildə qırmızı diplomla bitirdiyinə görə onun imtahan vermədən N.Nərimanov adına Tibb İnstitutuna göndərilərək ali təhsil almasına qərar verilir. Lakin müharibədən sonrakı qarışıq dövr olduğu üçün ailənin buna həm iqtisadi imkanı çatmır, həm də hökumət sarıdan nigaran olduqlarından qızın arzusu gözündə qalır. Çox-çox sonralar isə Sevil xanımın 3 qızı həkimlik sənətinə yiyələnir, oğlu isə kiçik qızına anasının adını qoyur və bu gün nəvə Sevil nənəsinin arzuladığı həkimlik sənətinin layiqli daşıyıçılarından biridir. Ailəyə daha güclü zərbə 30-cu illər repressiyasının qızğın çağında vurulur. Qəzənfər ağanın keçmiş musavatçı olması, tarixi həqiqətləri saxtalaşdırmayaraq türkçülük ənənələrini davam etdirməsi "qırmızı kommunistlər"

imperiyasının irticasına tuş gəlir. Əski kübar cəmiyyətinin əsilzadələrinə və quruculuq dalğası fonunda yetişmiş milli intibah simalarına "pantürkist" damğası vurularaq qazamata salınmaları, sorğu-sualsız Sibirə sürgün edilmələri onun milli ləyaqətinin çərçivələrini titrədir, azadlıq haqqında düşüncələrini sarsıdırdı.

**HAŞİYƏ:** *Hər axşam emadin (M-1 modifikasiyalı "Moskviç" markalı avtomobil-müəl.) maşınlarında gələn qara meşin kurtkalı NKVD-çilər məhəlləmizdən bir nəfəri tutub aparırdılar.*

Biz qorxumuzdan işıqları söndürüb pərdəni azacıq aralayaraq baş verənləri təşvişlə seyr edərdik. Dəhşətdən bütün vücudumuz lərzəyə gələrdi. Aparılanların sırası bizim evə yaxınlaşırdı. Bilirdik ki, NKVD-nin qapımızı döyməsinə lap az qalıb. Qəzənfər ağa bizə ürək-dirək versə də, özünün səhhəti gündən-günə ağırlaşırdı. Çoxdan idi ki, onun ürəyi xəstə düşmüşdü. Hətta Kislovodska müalicəyə də getmişdi (bunu sübut edən şəkil ailə arxivində durur).Bir gün çəpər qonşumuzu da apardılar. Biz həyəcan içərisində növbəti axşamı gözləyirdik, növbəmizin çatdığını hiss edirdik - Asyabəyim nənə bunları danışanda həmişə gözləri qapı-pəncərədə olardı ki, birdən eşidib-bilən olar. Qonşu aparılan günün səhərisi NKVD Qəzənfər ağanın evinə gəlir. Amma gecə vaxtı yox, səhər ertədən, çünki gecə yarısı mənəvi təzyiqlərin təbəddülatına dözməyən Qəzənfər ağa Cavanşirin ürəyi partlayır. Kübar cəmiyyətin qaydalarına uyğun olaraq ailə özünü sındırmır, məsələni açıb-ağartmır, lap acıb-a-

ğartsa belə bunun faydasız, bəlkə də daha təhlükəli olduğunu anlayır. Mərhumun xalq arasında "qarayara" adlanan Sibir xorasından vəfat etdiyi bildirilir. Hökumət üçün də bu versiya tamamilə məqbul olur. Qəzənfər ağa maarifçi-vətənpərvər kimi hökumət tərəfindən təmtəraqla dəfn olunur. Onun məzarı üçün Cavanşir nəslinin ən görkəmli nümayəndələrindən Pənahəli xanın və Xurşidbanu Natəvanın basdırıldığı "İmarət" adlı bağda (Xanlıq dövrünün Fəxri xiyabanında) yer seçilir. Ancaq tezliklə də büsbütün unudulur, "İmarət"də olan bir çox digər qəbirlər kimi onun da qəbri dağılıb (oxu:dağıdılıb) itir. Ötən əsrin 80-ci illərinin axırında – mənəvi özünəqayıdış dövründə Pənahəli xanla Xurşidbanu Natəvanın qəbirüstü abidələri hökumət tərəfindən bərpa olunur. Qəzənfər ağanın övladları, nəvələri onun qəbrini tapıb bərpa etmək üçün axtarışlara başlayırlar. Qəbir tamamilə itdiyindən axtarışlar xeyli genişlənir, arxivlərə müraciət olunur, lakin nəticə təəssüfləndirici olur. Ancaq ailə bilirdi ki, qəbir Xan qızının məzarı yaxınlığında daş hasar qarşısında olub. Lakin yenə də Rusiya imperiyasının təhrikçiliyi ilə ermənilərin Qarabağı işğal etməsi işləri yarımçıq qoyur. Qəzənfər ağa Cavanşirin Asyabəyimlə evliliyindən olan ilk iki övladı-Əliağa və Zərnişan kiçik yaşlarında vəfat edib, sonradan üç oğlu, iki qızı dünyaya gəlib. Böyük oğlu Ənvər 1983-cü ildə Ağdamda, ailənin Muradbəylidəki evində vəfat edib. Qızları Şəhla və Sevil, digər iki oğlu Nuşirəvan və Emin Bakıda "məcburi köçkün" statusunda vəfat ediblər.

Torpaqlarımızın işğalına son qoyan böyük Zəfərdən sonra Ağdam şəhəri Qarabağın digər şəhərləri kimi yenidən qurulur. Tarixi abidə kimi dəyərləndirilən "İmarət" də əldə olan faktlar əsasında artıq bərpa olunub, Cavanşir nəslinin görkəmli şəxsiyyətlərinin bu məkandakı türbələri və qəbirləri də öz yerinə qaytarılıb. Azərbaycan Prezidenti İlham Əliyev Pənahəli xanın irsinin bərpası üçün müvafiq göstərişlər verib və "İmarət" tarix-memarlıq kompleksi dövlət xətti ilə yenidən əvvəlki görünüşdə tikilib, əhalinin istifadəsinə verilib. Bir fakt xüsusilə qeyd edilməlidir ki, dövlət başçısının tapşırığı ilə "İmarət"də üzə çıxarılan bütün qəbirlər təmir olunub. O cümlədən, Qəzənfər ağa Cavanşırın məzarı da bərpa olunan qəbirlər sırasındadır.

Qəzənfər ağanın nəvəsi kimi bu prosesdə mən də iştirak etmişəm. Dağıdılmış qəbirlər arasında babamızın məzarının tapılması asan başa gəlmədi. Buna görə, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynovun bu işə diqqət və qayğı ilə yanaşması qeyd olunmalıdır. Nümayəndəliyin mədəniyyət şöbəsinin müdiri Faiq Hacıyevin, Ağdam Rayon İcra Hakimiyyəti, İH-nin Ağdam şəhəri üzrə nümayəndəsi Pənah Fətəliyev, yerli sakin, işğaldan əvvəl "İmarət" kompleksinin yerləşdiyi ərazinin qonşuluğunda yaşamış Elməddin Sərdar qəbirlərin tapılıb bərpa olunmasında ciddi fəallıq göstəriblər.

Yazıya aid fotolar



***Qəzənfər ağa Cavanşir birinci arvadı Zümrüd və qızı Hürriyyət ilə. 1903-cü ilin şəkli.***




***Qəzənfər bəy Cavanşirin birinci evlilikdən olan qızı Hürriyyətin körpəliyi. Şəkil XIX əsrin sonlarında Dərbənd şəhərində çəkilib.***



***Qəzənfər ağa Cavanşir və yazıçı Əli Vəliyev (1930-cu illərin əvvəli, o vaxtlar Ağdamda "Lenin yolu" qəzetinin redaktoru idi), şəkildə yuxarıdan 3-cü cərgə, soldan 5-6-cı şəxslər.***



***Ürək xəstəliyinə görə Qəzənfər ağa Kislovodskda müalicə olunub (ayaqüstə duranların cərgəsində soldan 6-cı şəxs), 1928-ci ilin şəkli.***



***Qəzənfər ağa Cavanşirin İmarətdə dəfni (1935-ci ilin payızı, yaxud da 1936-cı ilin fevralı)***

***Tabutun arxasında arvadı Asyabəyim dayanıb. Onun yanındakı qara örpəkli gənc qız Qəzənvər ağanın böyük qızı (ilk nikahdan) Hürriyyətdir. Tabutu qabaq tərəfdən sağda tutan yazıçı Əli Vəliyevdir.***



*Qəzənfər ağanın böyük oğlu Ənvər Cavanşir (1983-cü ildə vəfat edib)*

***ildə vəfat edib)***



***Qəzənfər ağanın böyük qızı Şəhla Cavanşir (2002-ci ildə vəfat edib)***



*Qəzənfər ağanın ortancıl oğlu Nuşirəvan Cavanşir (1997-ci ildə vəfat edib)*




***Qəzənfər ağanın kiçik oğlu Emin Cavanşirov (1994-cü ildə vəfat edib)***



*Qəzənfər ağanın kiçik qızı Sevil Cavanşir (2020-ci ildə vəfat edib)*



*Qəzənfər ağa Cavanşirin sonbeşiyi Sevil xanım övladları və nəvə-nəticələrinin bir qrupu ilə. 2016-cı il.*



AZƏRBAYCAN İSTİQLAL MUZEYİ

«TƏSDİQ EDİRƏM»
Muzeyin direktoru
[illegible] S.
«23» İyun 2022 – ci il

Əşyaların **daimi** (müvəqqəti) mühafizəsi üçün qəbuletmə

**AKT № 29**

«23» İyun 2022 – ci il

**Həmin akt tərtib edilir bir tərəfdən** Azərbaycan İstiqlal Muzeyinin
**(muzeyin adı)**

**nümayəndəsi** Elmi fond işləri üzrə direktor müavini Axundova Aida Xalıq qızı
**(vəzifəsi, soyadı, adı, atasının adı)**
**və digər tərəfdən** Qarabağ Azadlıq Təşkilatının mətbuat katibi
**(müəssisənin adı)**
**nümayəndəsi** Novruzov Novruz İbrahim oğlu

iştirakı ilə, ondan ötrü ki, Azərbaycan İstiqlal Muzeyinə
**(muzeyin tam adı)**
**daimi** (müvəqqəti) mühafizə üçün aşağıdakı

əşyaları birinci təhvil aldı, ikinci təhvil verdi.

| Sıra № | Əşyanın adı və qısa təsviri. Material, işlənmə texnikai, ölçüsü. | Uçot nişanı | Qorunub saxlanması | Qeyd |
|---|---|---|---|---|
| 1. | Fotoşəkil. Qəzənfər ağa Cavanşir və onun ailə üzvlərinə məxsus. Material-fotokağız. Foto mətbəədə çap olunub. Ölçü-müxtəlif. | AİM D/K | Orta | 11 ədəd |
| | | | | 1 ədəd |



Müəllif-Hacı Əkbər Rüstəmov.
Material-kağız, karton.
Mətbəədə çap olunub.
Ölçü-15x21 sm.

| | | | | |
|---|---|---|---|---|
| 3. | DVD-Disk. İçərisində Qəzənfər ağa Cavanşir və onun ailə üzvlərinə məxsus fotoşəkillər var. Material-plastik. Studiyada hazırlanıb. Ölçü-diametr-12 sm. | AİM D/K | Orta | 1 ədəd |
| 4. | Məlumat vərəqi-surət. Qəzənfər ağa Cavanşir və onun ailə üzvləri haqqında yazılmış. Müəllif-Novruz Novruzov. Material-kağız. Ölçü-21x30 sm. | AİM E/K | Orta | 2 ədəd |
| 5. | Məqalə mətni-surət. Xocalı faciəsi haqqında jurnalist Novruz Novruzovun yazdığı məqalə mətni. 26 Noyabr 2020-ci il. Material-kağız. Ölçü-21x30 sm. | AİM E/K | Orta | 1 ədəd |

Akt 3 (üç) nüsxədə tərtib edildi.
Protokol № 06
Akt üzrə 16 (on altı) ədəd əşya qəbul edildi.

Təhvil aldı: Axundova A.X
Təhvil verdi: Novruzov N.I
İştirak etdi: Aslanov S.A

**Həmin akt tərtib edi...**
**nümayəndəsi** Elmi fon...
**və digər tərəfdən** Qarab...
**nümayəndəsi** Novruzov ...
iştirakı ilə, ondan ötrü ki, A...
**daimi** (müvəqqəti)
əşyaları birinci təhvil aldı, iki...

| Sıra № | Əşyanın adı və q... Material, işlənmə... ölçüsü. |
|---|---|

1. Fotoşəkil. Qəzənfər ağa Cavanşir v... onun ailə üzvlərinə məxs... Material-fotokağız. Foto... mətbəədə çap olunub. Ölçü-müxtəlif.
2. Kitab. "Vətən" kitabı. Bakı 2021.

***Bu yazı Milli İstiqlal muzeyinin arxivində saxlanılır***




*Qəzənfər ağanın qəbrinin axtarışı*

**AKT № 5**

*Ağdam şəhəri*
*21 May 2024-cü il*

Biz, aşağıda imza edənlər, Hacıyev Faiq Allahverdi oğlu (Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin məsləhətçisi), Fətəliyev Pənah Həsənqulu oğlu (Ağdam Rayon İcra Hakimiyyəti başçısının Ağdam şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi) və Novruzov Novruz İbrahim oğlu bu aktı tərtib edirik ondan ötrü ki, vətəndaş Novruzov Novruz İbrahim oğlu (ş/v AZE 17098780, FİN: 50A3KM7) Ağdam şəhərində yerləşən İmarət Kompleksinə daxil olan tarixi qəbiristanlıqda arxeoloji tədqiqatlar zamanı **A6** kvadratında qeyd edilmiş **6 saylı** qəbirdə onun qohumu (babası) Qəzənfər ağa Nəcəfqulu oğlu Cavanşirin dəfn olunduğunu göstərmişdir.

**F.Hacıyev**

**P.Fətəliyev**

Mən, Novruzov Novruz İbrahim oğlu, yuxarıda göstərilənlərin həqiqiliyini imzam ilə təsdiq edirəm.

**N.Novruzov**

Akt 3 (üç) nüsxədə tərtib edilmişdir. Akta əlavə edilir:

***Qoşma 1:*** *Novruzov Novruz İbrahim oğlunun şəxsiyyət vəsiqəsinin surəti*

***Qoşma 2:*** *Fotoşəkil (KV. A6, qəbir-6)*




***Qəzənfər ağa Nəcəfqulu bəy oğlu Cavanşirin Ağdamdakı "İmarət" tarix-memarlıq kompleksində bərpa olunmuş qəbri (1870-1935)***

# Qəzənfər Cavanşirin ata tərəfdən nəsil şəcərəsi



## Qəzənfər Cavanşirin ana tərəfdən nəsil şəcərəsi və arvadı Asyabəyimin nəsil xətti



## Üç çinarın tarix dolu kiçik hekayəti

Ağdamın Zəngişalı kəndində, kəndlilərin pay torpaqlarının arasında öz möhtəşəmliyi ilə nəzəri cəlb edən 3 çinar ağacı var. Kənd özü qədim olsa da, sosial inkişaf tarixi bu ağacların yaşına tən gəlir. Nədəndir ki, XIX əsrin ortalarından etibarən bu kəndin idarəçiliyi Qarabağ xanlığının məşhur hökmdarı İbrahim xanın oğlu Səfiqulu ağanın böyük oğlu Hüseynqulu ağanın öhdəsinə veriləndən sonra Zəngişalının büsatlı günləri başlayıb. Hüseynqulu ağanın rəhbərliyi altında kənddə qazılan çoxsaylı quyulardan çıxarılan su torpağı cana gətirib, əhalinin əkin-biçinini bərəkətli edib, kəndlilərin sosial vəziyyəti yaxşılaşıb. Vaxtilə Zəngişalını ağ günə çıxarmış bu işlər haqda kənd əhalisinin zəngin xatirələri var.

Hüseynqulu ağa Cavanşirin minbir əziyyətlə 10 hektarlıq ərazidə saldırdığı bağ öz çoxnövlü meyvə ağacları və ümumiyyətlə, dünyanın bir çox ölkələrindən gətirilərək becərilən bitki növləri ilə məşhur olub. İş burasındadır ki, həmin bağ müstəqillik illərinə qədər qalırmış, ancaq respublikamız “öz əli, öz başı” olandan sonra kəndlilərə pay torpaqları verilən zaman həmin bağ da ümumi əraziyə aid edilib və kənd sakinləri arasında bölünüb. Kəndlilər də 100-150 il yaşı olan ağacları dibindən çıxarıb, sahəni əkin yerinə çevirib.



***Xatirə nişanəsi 3 çinar ağacı, təxminən 150 il əvvəl əkilib.***

Vəziyyətin belə olduğunu görən kənd bələdiyyəsi əlli tərpənib və bağda yanaşı olan 3 çinar ağacına da 5 sot torpaq ayıraraq kəndin və kəndlilərin yaddaşında iz salmış tartixi keçmişi yaşatmağa çalışıb. Hazırda yeganə də olsa, bu çinar ağacları tarixi yaddaşımıza böyük hörməti təcəssüm etdirir. Lakin.., tariximizə nə qədər hörmət-izzət, onu yaşatmağa arzu-istək olsa da, maliyyəsi olmayan yerli orqanlar vizual olaraq heç nə edə bilmirlər. Yəni, bu ağaclar sadəcə tarlaların arasında təsadüfi bitmiş  yad varlıqlar təsiri bağışlayır. Ətrafında nə bir hasarı var, nə də haqqında

xırda bir lövhə. Necə deyərlər, “nə gələnu var, nə gedəni, nə baxanı, nə də qoruyanı”. Haqq üçünə, camaatın başı qarışıb dolanışığın dərdini çəkməyə, onlar çinar-tarix haqda düşünməyə macal tapmırlar. Kənd sakini Nahid Əliyevin ölçmələrinə görə, ağaclardan ən böyüyünün gövdəsinin aşağıdan çevrəsinin uzunluğu 4,7 metr, ikincisi 4,4 metr, üçüncüsü isə 3 metrdir. Ölçülərdən göründüyü kimi bunlar həqiqətən nadir ağaclardır.

Mən bu haqda 10 il əvvəl də yazmışdım. O vaxt hansısa bixəbər cavan ağaclardan birinin gövdəsini balta ilə çaparaq adının baş hərfini həkk etmişdi. 10 il ərzində ağac öz-özünü müalicə edərək yarasını sağaldıb. Amma izi hələ də qalır. Tariximizin bu zərrəciyini sağaltmaq və qorumaq isə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Mədəniyyət Nazirliyinin, habelə AMEA-nın müvafiq strukturlarının, üstəlik də Azərbaycan Turizm Agentliyinin öhdəsinə düşür. Niyə?

Birincisi, Zəngişalı kəndi məhz regionda Qarabağ xanlığı mövcud olan dövrdə inkişaf yoluna qədəm qoyub. Bu faktın hazırkı ictimai-siyasi şəraitdə tarixi dəyəri yüksəkdir.

İkincisi, çinarlar “Ağalıq bağı” adlanan və sovet hakimiyyətindən əvvəl rəiyyətin yaşadığı yerdən bir neçə yüz metr aralı olan, habelə o dövr üçün möhtəşəm sayılan ikimərtəbəli, 12 otaqlı malıikanədən ibarət (1959-cu ildə kəndin kolxoz sədrinin məşhur nəslin nümayəndələrinə təcavüzkar niyyətilə sökülmüşdür) ərazidə yerləşir və XIX əsr Azərbaycan feodal həyat tərzini müzey şəklində canlandırıb turistləri cəlb etmək üçün gözəl məkandır.

Üçüncüsü, gəlin unutmayaq ki, yazıçı Süleyman Sani Axundov sovetləşmədən əvvəl Ağdamda yaşadığı dövrdə Hüseynqulu ağa ilə dost olub, dəfələrlə onun malikanəsinə

qonaq gəlib və yazdığı "Qaraca qız" hekayəsinin süjetini də burada baş vermiş real hadisədən götürüb. Sadəcə, o, hekayənin ilk variantında Hüseynqulu ağanın həqiqi alicənab, insanpərvər, rəhmdil, rəiyyətin qayğısını çəkən və Qaraca qız kimi kasıbları öz övladı kimi himayə edən surətini yaratsa da, sonradan sosialist realizminin və fəhlə diktaturasının tələbi ilə hekayədə dəyişiklik edərək keçmiş varlıları mənfi surətə çevirməyə məcbur olub.

Səbəblərin sayını artırmaq olar, ancaq bundansa, çinarlara qayğı göstərməyə başlamaq daha faydalıdır. İşin gedişində o qədər maraqlı və zəruri faktlar meydana çıxacaq ki...

**Novruz NOVRUZOV**
*15.08. 2021*

## XAN QIZININ XATİRƏ ƏŞYALARI

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Xurşidbanu Natəvanın anadan olmasının 180 illik yubileyinin keçirilməsi haqqında" 3 aprel 2012-ci il tarixli sərəncamına əsasən çap olunmuş "Neçin gəlməz" kitabında dərc olunmuş məqalə***

Azərbaycan tarixində feodal dövlətlərdən biri olan Qarabağ xanlığının "zərif duyğular incisi" adlandıra biləcəyimiz xanımı Xurşidbanu Natəvanın bu il 180 illiyidir. Azərbaycan ədəbiyyatında görkəmli söz ustası kimi özünəməxsus yeri olan Xan qızı öz dövründə həyata keçirdiyi sosial tədbirlər, himayədarlıq, mesenantlıq kimi işləri ilə el arasında böyük nüfuz qazanmışdı.

Xan qızının şairəliyi, gözəl poeziya nümunələri yaratması, bununla yanaşı camaatın işinə yaraması, 1872-ci ildə öz xərci hesabına Şuşa şəhərinə su kəməri çəkdirməsi indi də xalq tərəfindən rəğbətlə xatırlanır.



***Xurşidbanu Natəvanın tikdiyi kofta. Kofta yazı müəllifi tərəfindən Azərbaycan Tarixi müzeyinə təhvil verilib. Aktın surəti.***

Xurşidbanu Natəvan el sənətlərini bilməsi, rəssamlığı, evdarlığı, gözəl əl tikmələri ilə də müasirlərinin diqqətini cəlb etmişdir. Şairənin rəsmlərindən ibarət albom bu günə qədər qorunub saxlanmışdır. Onun gözəl məziyyətlərindən biri də özünün paltar tikməsi olmuşdur. Bunu sübut edən nümunələrdən biri - Xurşidbanunun əl qabiliyyətinin məhsulu olan yaraşıqlı qadın üst köynəyi bu günədək qalmışdır. Köynəyi (vaxtilə) Ağdam şəhərində yaşayan müəllimə Şəhla Cavanşir-Ələkbərova, daha sonralar isə onun bacısı, təqaüdçü Sevil Cavanşir-Novruzova qoruyub saxlamışdır. Sevil xanım onun tarixçəsini belə söyləyir:

- Təxminən XIX əsrin ikinci yarısında Natəvanın əmisi qızı Məşədi Münəvvər xanımın əri Nəcəfqulu bəy (el arasında "Bığlı Nəcəfqulu" deyərmişlər) düşmənləri tərəfindən öldürüləndən sonra Xan qızı qohumlarını öz himayəsinə alır. Münəvvər xanımın dörd uşağından ikisini - oğlanları Qəzənfəri və İbrahimi yanına aparıb oxutdurur. Həmin il Xurşidbanu tikib qurtardığı yaraşıqlı köynəyi Münəvvər xanıma bağışlayır. Natəvanın saxladığı uşaqlardan böyüyü Qəzənfər əvvəl Şuşada, daha sonra isə Rusiyada təhsilini başa vurub qayıtdıqdan sonra Münəvvər xanım oğlunu qardaşı qızı Asya bəyimlə evləndirir və Xan qızının yadigarı kimi üst köynəyini gəlininə bağışlayır.

Asya xanımın böyük qızı Şəhla 1945-ci ildə Ağdamdakı ikiillik pedoqoji institutda təhsil aldığı dövrdə köynəyi anasından nəslin yadigarı kimi qəbul edib, səylə qoruyur. Daha sonralar isə kiçik bacısı Sevilə hədiyyə edir.

Yaxalığı hərləmə hər milli naxışlarla işlənmiş köynək yaxşı saxlanmışdır. Parçası olduqca zərif və gözəldir. Şahidlərin dediyinə görə, 1950-ci ilə qədər köynəyin sinəsində dörd iri brilyant qaş olub. Xurşidbanunun 1897-ci ildə vəfat etdiyini, onun tərbiyə verib oxutdurduğu Qəzənfər ağanın isə müəllimlik təhsilini 1893-cü ildə bitirdiyini nəzərə alsaq köynəyin təxminən 1885-ci ildə tikildiyini və 125 yaşı olduğunu söyləyə bilərik. Şairənin

180 illik yubileyi ərəfəsində köynək Azərbaycan tarixi muzeyinə hədiyyə edilmişdir.



TƏSDİQ EDİRƏM:

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin elmi fond işləri üzrə direktor müavini [illegible]

"25" may 201_-ci il

Əşyaların müvəqqəti mühafizəsi üçün təhvil-təslim

AKTI № 17

"25" may 201_-ci il

Həmin akt tərtib edilir bir tərəfdən AMEA Milli Azərbaycan Tarixi Muzeyinin nümayəndəsi - Fond işləri üzrə direktor müavini Zeynalova Məhfuzə Hacı qızı və digər tərəfdən Novruzov Novruz İbrahim oğlu, Bakı ş., [illegible] küç., ev 78, m. 32 iştirakı ilə, ondan ötrü ki, AMEA Milli Azərbaycan Tarixi Muzeyi müvəqqəti mühafizə üçün aşağıdakı əşyaları birinci təhvil verdi, ikinci isə təhvil aldı:

| Sıra №-si | əşyanın adı qısa təsviri materialı işlənmə texnikası ölçüsü | Saxlanma vəziyyəti | Qeyd |
| --- | --- | --- | --- |
| 1 | Köynək Xurşidbanu Natəvanın əl işi. Parçası ipək, bej rəngli, üzərində açıq çəhrayı rəngli xolaqlar var. Yaxası və qollarında [illegible]. Qeyd: köynəyi Pənah xanın nəslindən olan [illegible] Ağdam sakini muzeyə hədiyyə vermişdir. | | |

Akt üzrə cəmi bir ədəd əşya təhvil verildi.

Təhvil aldı: Zeynalova M.

Təhvil verdi: Novruzov N.

***Aktın surəti.***

Sevil xanım anasının söhbətlərini xatırlayaraq söyləyir ki, Xurşidbanunun kağız kimi nazik və zərif ipəkdən tikdiyi paltar o dövrdə öz yaraşıqlığı ilə hamını heyrətdə qoymuşdur. Bundan başqa adi zərif parçadan tikilmiş paltarda papiros külünün yandırdığı yerə şairə elə yamaq vurmuşdur ki, bunu heç kim sezməmişdir.

Ailənin səylə qoruyub saxladığı nəsil yadigarlarından biri də təxminən 150 il yaşı olan fərməşdir. Xan qızının adı ilə bağlı olan fərməşin də maraqlı hekayəti var. Xurşidbanu əmisi nəvəsi Qəzənfər ağanı oxumağa göndərəndə (təxminən 1885-ci ildə) yorğan-döşəyini yığmaq üçün ona bir fərməş hədiyyə edir. Lakin o, fərməşi kimdənsə almır, sadəcə öz evlərində olan fərməşlərdən birini Qəzənfər ağaya verir.



***Bu fərməşin tarixi bəlkə də 150 ildən çoxdur. Fərməş yazı müəllifi tərəfindən Azərbaycan Tarixi muzeyinə təhvil verilib. (Aktın surəti təqdim olunur). Fərməş və məfrəş sinonim sözlərdir, deyilişi bölgələr üzrə dəyişir, yorğan-döşəyi yığmaq üçün nəzərdə tutulmuş, ilgəkləri olan bəzəkli xalçadır.***

Qarabağın Ağdam bölgəsində maarifçiliyin inkişafından yazan müəlliflər Qəzənfər ağanın Qori seminariyasında

təhsil alması faktını həmişə qeyd etmişlər. Lakin Azərbaycandan Qori seminariyasında təhsil alanların siyahısında onun adına rast gəlmirik. Üstəlik, Qəzənfər ağanın arvadı (həm də dayısı qızı) Asya bəyim onun haqqında danışanda həmişə Peterburqda təhsil aldığını deyərdi. Buna görə də tam əminliklə deyə bilərik ki, Qəzənfər ağa pedaqoqluq təhsilini Rusiyada, ya Peterburqda, ya da Mahaçqalada almışdır. Təsadüfi deyildir ki, o, müəllimlik fəaliyyətinə 1893-cü ildə Dağıstanda, Kizlər şəhərində başlamışdır.

Qəzənfər ağa Cavanşir Xan qızının verdiyi fərməşi həm təhsil illərində, həm də sonralar məişətdə istifadə etmişdir. Ailədə "Natəvanın fərməşi" adlandırılan bu əşyadan ta ötən əsrin 70-ci illərinə qədər istifadə olunmuşdur. Qəzənfər ağanın ortancıl oğlu Nuşirəvan Agdam rayonunda yun tədarükçüsü işlədiyindən hər il yayda işi ilə əlaqədar Kəlbəcər yaylağına getməli olurdu. Yaylağa o, öz ailəsi ilə yanaşı yaxın qohumlarını da aparardı. Yaylaq köçündə isə fərməşlər (toxunma sandıq) yük bağlaması kimi əvəzolunmaz əşyadır. Təbii ki, ailədə fərməşlər çox idi və onlar işləndikcə aşınır və yarasız hala düşürdü. Beləcə, keçmişdən qalan bütün fərməşlər sıradan çıxdıqca onların yerini müasir daşıma vasitələri tuturdu. Lakin, Cavanşirlərin xüsusi simalarından biri kimi Xan qızının xatirəsini əziz tutan ailə onun vaxtilə verdiyi hədiyyəni qayğı ilə qoruyub saxlamağa qərar verir. Xurşidbanu Natəvanın xatirəsi hopmuş fərməşin saxlanma estafeti hazırda Sevil xanımın oğlundadır.

Xurşidbanu Natəvana dair belə faktların aşkara çıxması onun hərtərəfli qabiliyyətə malik şəxsiyyət olmasına daha bir sübutdur.

**Novruz İbrahimoğlu**
*Jurnalist*

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin elmi fond işləri üzrə direktor müavini-baş mühafiz

TƏSDİQ EDİRƏM:
AMEA Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik
Naila Vəlixanlı

"13" iyul 2012-ci il

Əşyaların daimi (müvəqqəti) mühafizəsi üçün qəbuletmə

AKT I № 17

13 iyul 2012 - ci il

Həmin akt tərtib edilir bir tərəfdən AMEA Milli Azərbaycan Tarixi Muzeyinin nümayəndəsi - Elmi-fond işləri üzrə direktor müavini Zeynalova Məhfuzə Hacı qızı və digər tərəfdən Novruzov Novruz İbrahim o, AZEN Bakı ş. M. Nuriyev, 48, m 32; Nizami RPİ 2007-ci il
(təhvil verən müəssənin adı, şəxsin soyadı, adı, atasının adı, pasportu və ünvanı)
iştirakı ilə ondan ötrü ki, AMEA Milli Azərbaycan Tarixi Muzeyinə daimi (müvəqqəti) mühafizə üçün əşyaları birinci təhvil aldı, ikinci isə təhvil verdi:

| Sıra № | əşyanın adı, qısa təsviri, materialı, işlənmə texnikası, ölçüsü | Saxlanma vəziyyəti | Qeyd |
|---|---|---|---|
| 1. | Məfrəş altı palas toxunuşlu; ətrafları qaytan toxunuşludur. XIX ə ortaları<br>Ölçüsü: uz. - 100 sm<br>hün - 48 sm<br>eni - 54 sm<br>Natəvanın əmisi nəticəsinə hədiyyəsidir. - 1885-ci il | tam deyil | |

Akt üzrə cəmi Bir ədəd əşya qəbul edildi.

Təhvil aldı: /M. Zeynalova/ Təhvil verdi: /N. Novruzov

***P.S. Fərməş Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir.***

## Kitabın içindəkilər


*Torpağın sahibi* ..................................................... *4*

*Üç çinarın tarix dolu kiçik hekayəti* .................... *56*

*Xan qızının xatirə əşyaları* .................................. *60*

Mətbəənin direktoru: Elman Qasımov
Dizayner: İlham Əhmədov

Çapa imzalanmışdır: 30.09.2025.
Formatı: 84x108 1/16.
Çap üsulu: Ofset çapı
Həcmi 4.25 ç.v. Sifariş № 80. Tiraj 100
«Zərdabi Nəşr» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel: (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçt: zerdabi_em@mail.ru